DOI: 10.30546/2616-4418.27.2023.12

# TÜRKİYƏ TEXNOPARKLARININ TƏHLİLİ ƏSASINDA SUMQAYIT DÖVLƏT UNİVERSİTETİNİN NƏZDİNDƏ TEXNOPARKIN YARADILMASI VƏ ONUN DAVAMLI İNKİŞAFLA ƏLAQƏSİ MƏSƏLƏSİ

**Cavanşir MƏMMƏDOV**
*Sumqayıt Dövlət Universiteti , Sumqayıt, Azərbaycan*

**Şəfiqə MƏMMƏDOVA**
*Sumqayıt Dövlət Universiteti , Sumqayıt, Azərbaycan*

**Yusif HÜSEYNOV**
*Azərbaycan Texnologiya Universiteti , Azərbaycan*

## Giriş

Dünya təcrübəsi göstərir ki, iqtisadi subyektlərin, o cümlədən universitetlərin inkişafı innovasiya fəaliyyətini stimullaşdıran uyğun şərtlərin və mexanizmlərin yaradılmasını zəruri edir. Bu zərurət də eyni zamanda texnoparkların yaradılması və onların innovasiya fəaliyyəti ilə bağlıdır. Texnoparkların yaradılması məqsədləri isə öz növbəsində davamlı inkişaf konsepsiyası ilə sıx korrelyasiyaya malikdir (Dubovik, Mikle, pp. 43-48; Chandra, Amar, Chao, Celim. pp. 55-69; Mammadov, Javanshir, Huseynov, Elchan, Talibov, Natik, Akhmadova, Tarana, Ganjaliyeva, Gulnara, pp. 571-574).

CC BY NC ND

Son dövrdə Azərbaycan Respublikasının ATM-lərində baş verən innovasiyalı yenidənqurma işləri SDU-nun elmi yaradıcılıq fəaliyyətində də öz əksini tapmışdır (United Nations Transforming our World, 2020). SDU-nun Fəaliyyət Planına əsasən müəyyən edilən elmi işlərin praktiki əhəmiyyətini artırmaq, nəticələrin kommersiyalaşdırılmasını təmin etmək məqsədi ilə universitetin bazasında yeni elmi – yaradıcılıq – istehsalat və iqtisadi idarəetmə müəssisənin işlənməsi müasir dövrün tələblərinə cavab verən vacib məsələ kimi qarşıya qoyulmuşdur. SDU-nun elmi-yaradıcılıq fəaliyyətinin əsas sahələrindən biri olan, elmi işlərinin nəticələrinin kommersiyalaşdırılması üçün SDU-nun nəzdində texnoloji parkın yaradılmasıdır.

Bununla əlaqədar olaraq, tədqiqatın məqsədi SDU-nun nəzdində biznes inkubasiya, elmi-tədqiqat sahəsi, çevik istehsalat yönümlü müəssisənin və biznesin təşkili qurumunun korporasiyasını təmin edən texnoparkın yaradılması kimi müəyyən edilmişdir. Məqalənin məqsədindən irəli gələn aşağıdakı əsas tədqiqat məsələlərinin həlli tələb olunur :

- *Türkiyədə ATM–lərin prototip texnoparklarının təhlili;*
- *Türkiyədəki ATM–in nəzdində olan texnoparka analoq olan, innovasiya – yaradıcılıq mərkəzinin SDU-da seçilməsi və əsaslandırılması;*
- *ATM-in (SDU-nun bazasında) texnoparkının quruluşunun təyini;*
- *SDU-nun bazasında təklif olunan texnoparkın fəaliyyət sxemi;*
- *SDU-nun bazasında yaradılacaq texnoparkın əsas ixtisas profillərinin seçilməsi;*
- *SDU-nun bazasında yaradılacaq texnoparkın startup layihələr bazasının işlənməsi.*

## Türkiyədə fəaliyyət göstərən prototip texnoparklarının təhlili

21-ci əsrin əvvəllərindən başlayaraq Türkiyə Cümhuriyyətinin yüksəlişli iqtisadi inkişafı bir çox sahələrdə yenidənqurma işlərinin aparılması ilə əlaqədar olmuşdur. Bu sahələrdən biri də ali təhsil sahəsidir. ATM-lərdə işləyən çoxsaylı akademik heyətlə yanaşı elmi yaradıcı düşüncəyə malik olan tələbə kontingenti təhsil alır. Onların ideyalarının səmərəli istifadəsi, yəni ideyadan real məhsula çevrilməsi və gələcəkdə onun yerli və ya xarici bazara çıxarışı üçün Türkiyənin ATM-lərində innovativ texnoloji qurumlarının (texnokəndlər) yaradılmasına start verildi. Son 20 ildə Türkiyədə fəaliyət göstərən texnoparkların ümumi sayı 92-yə çatıb (https://www.teknoparkistanbul.com.tr; https://bilisimvadisi.com.tr/; https://www.ariteknokent.com.tr/tr). Türkiyə texnoparklarının təhlili göstərir ki, onlar aşağıdakı qruplara bölünür:

- Sənaye parkları (müxtəlif sənaye sahələrinin müəssisələrindən - rezidentlərdən təşkil olunur);

- Texnoparklar (Bilişim Vadisi, İstanbul Texnopark, GOSB, Bilkent Cyberpark) (Şəkil 1);
- ATM-lərdə Texnoparklar (İstanbul Texniki Universitetinin Teknokəndi, Bursa Ulutek Universitetinin Texnoparkı.



**Şəkil.1.** Türkiyənin məhşur texnoparklarının görüntüləri

Son 10 ildə Türkiyədə yaradılan texnoparkların iqtisadi yüksəlişinin göstəriciləri ondan ibarət olmuşdur ki, onlardan bir neçəsi Avropa İttifaqının Almaniya, Niderland, Fransa, Belçika, İtaliya və s. inkişaf etmiş ölkələrinin 100 texnoparklarının sıralarına daxil olmağı bacarmışdır. Buna səbəb kimi aşağıdakı amilləri qeyd etmək olar:

1. Gənc yaşlarından, kreativ, elmi-yaradıcı düşüncəli uşaqların strateji ixtisaslı elmi işlərə cəlb edilməsi;
2. Müasir dövrün daha sürətlə inkişaf etmiş informasiya texnologiyaları, təhlükəsizliyi, proqramlaşdırma, şəbəkə sistemləri, bu sistemlərin hərb texnikası ilə əlaqələndirilməsi, hərb sənayesinə aid olan hava və kosmik qüvvələr və s.;
3. Ali təhsil müəssisələrində işləyən və oxuyan akademik və tələbə heyətini elmi yaradıcı işlərə cəlb etməklə, elmi-tədqiqat işlərinin nəticələrinin kommersiyalaşdırılması, yəni ATM-in işçi və tələbələrinin əməyinin stimullaşdırılması;
4. Türkiyə dövlətinin hüquqi, iqtisadi dəstəyinin olması;
5. Texnoparklar haqqında qanuna əsasən yaradıcı-tədqiqatçının yeni biznesin təşkil edilməsinə əlverişli şəraitin olması.

Türkiyənin ən məhşur İstanbul Texnoparkı (https://www.teknoparkistanbul.com.tr) 384 firmadan, 7341 mühəndis kontingentindən, 2468 milli layihədən, 237 patent, 210 firmanının inkubasiya

mərkəzinin məzunları, inkubasiya mərkəzindən texnoparkda keçərək, fəaliyyətini orada davam etdirən 85 firmadan ibarətdir (Şəkil 2).



**Şəkil. 2.** İstanbul texnoparkının görüntüsü

Bilişim Vadisi (Şəkil 3) (https://bilisimvadisi.com.tr/) beynəlxalq səviyyədə tanınan və qəbul edilən Amerikadakı "Silikon Vadisi"ndən ilham alaraq dizayn edilmişdir. Bilişim Vadisi işçilərinə əvəzolunmaz imkanlar təqdim edir. İnsanların çoxu ən qısa zamanda təqaüdə çıxmaq arzusunda olduğu halda, burada işləyənlər həyatı bir yarış və əyləncə kimi görürlər. Texnoparkın 35%-i texnopark rəhbərləri və nümayəndələri, 12%-i dövlət qurumlarının (Sənaye və Texnologiya, Tübitak, Brend, Universitetlər, Sənaye Palataları) menecerləri və nümayəndələri, 31%-i Ar- Ge şirkətlərinin sahibləri və menecerləri, 12 milli şirkətdir, menecerlər və 10% beynəlxalq şirkət menecerləri təşkil edir.

Son 20 ildə ATM bazasında yaradılan və hal-hazırda uğurla fəaliyyət göstərən texnoparklardan biri də İstanbul Texniki Universitetinin Texnokəndidir (İTUT). 2002-ci ildə İstanbul Texniki Universitetinin bazasında yaradılmışdır. İTUT Türkiyənin ən inkişaf etmiş texnokədlərindən biri olaraq, sənaye və bir çox universitetlərlə əməkdaşlıq edir, çoxsaylı şirkətlərin inkişafına kömək edir. İTUT-da 300 elmi-tədqiqat kompaniyalarında 8800-dən çox əməkdaşı 120000 m2 sahədə fəaliyyət göstərir. İTUT-un əsas tədqiqat profilləri informatika, telekomunikasiya, hərbi, məişət avadanlıqları, tibb, dizayn və energetika sahələrində yüksək texnologiyalarının tətbiqinə əsaslanır (https://www.ariteknokent.com.tr/tr). Firmaların əldə etdiyi ümumi gəliri 4 milyard TL təşkil edir.




**Şəkil. 3.** Bilişim Vadisi texnoparkının görüntüsü.

İTU ARI Teknokent, Türkiyənin ən nüfuzlu texnologiya şəhəri 24 fevral 2022 - Teknokentdən, Texnologiya, İnnovasiya və Sahibkarlıq Mərkəzindən Business Leaders Startup jurnalının hazırladığı "Ən Nüfuzlu Liderlər" sorğusunda iştirak edib. Buna uyğun olaraq İTU ARI Teknokent olaraq ən nüfuzlu texnopolislərin reytinqində birinci yeri tutub. İTÜ Çekirdek inkubasiya mərkəzimiz sahibkarlıq ekosistemində ən çox dəyər yaradan və ekosistemi ən çox yaşadan inkubasiya mərkəzi seçilib.

## Sumqayıt Dövlət Universitetində (SDU) Texnoparkın yaradılması üçün təkliflər

Təhlil olunan Türkiyə texnoparklarının fəaliyyət istiqamətlərinə, onların arxitektur-dizayn quruluşlarına, iş prinsiplərinə əsaslanaraq qeyd etmək olar ki, İTUT-ə analoq olaraq, Azərbaycanın aparıcı ATM-lərindən biri olan Sumqayıt Dövlət Univesitetinin nəzdində texnoparkın yaradılması məqsədəuyğun olardı. Lakin, İTUT-dan fərqli olaraq, SDU-da yaradılacaq texnopark üçün aşağıdakı təklifləri vermək olar:

1. SDU-nun Texnoparkının işinə universitetin Mühəndislik, Fizika və Elektroenergetika, Kimya və biologiya, İqtisadiyyat fakültələrinin akademik və tələbə kontingenti cəlb olunmalıdır (Mammadov, Javanshir, pp. 1370-1375). Fakültələrin ixtisasçı mütəxəssislərindən firmalar, konsaltinq xidmətləri-rezidentlər, iqtisadi və mentorluq dəstəyi və proqramlaşdırma üzrə mütəxəssisləri seçilmək və iş yerləri yaratmaq (1.1). Tətbiq sahələrinə (proseslərin avtomatlaşdırılması, intellektual və şəbəkə proqramlaşdırılması, robototexnika, pilotsuz aparatlar, kimya, biologiya, ekologiya, biznesin təşkili, marketinq və s.) əsasən iş yerləri yaratmaq (1.2).

2. SDU-nun Texnoparkında rəqəmli dəzgahlar əsasında çevik istehsalat sahəsini təşkil etmək (2.1), texnoloji prosesdə mexaniki hissələrin hazırlanması üçün 3D printerləri tətbiq etmək (2.2), layihələrin elektrik və elektronika təchizatını təmin edən, cihazqayırma və enerji təminatını sahəsini yaratmaq (2.3).

3. SDU-nun Texnoparkında quruluşuna əsasən inkubasiya mərkəzinin (3.1), startap-çıların işçi sahəsinin (3.2), scaleup-çıların işçi sahəsinin (3.3) və şirkət fəaliyyətinin işçi sahəsinin (3.4) inşa olunacaq arxitekturasını işləmək (Mammadov, Javanshir, 2011, pp. 1370-1375).

4. SDU-nun Texnoparkında startapçılar üçün ASAN Layihələndirmə (4.1), Hüquq (4.2), Biznes Dəstəyi (4.3), Patentləşdirmə xidmətini (4.4) təşkil etmək.

5. SDU-nun Texnoparkının arxitektur inşaatı baxımından inkubasiya mərkəzinin (5.1: 5.1.1, 5.1.2,....,5.1.n), startap-çıların silindrik fəzalı işçi sahələri (5.2: 5.2.1, 5.2.2,....,5.2.m), scaleup-çıların sferik işçi sahələri (5.3: 5.3.1, 5.3.2,. ,5.3.k) və artıq şirkət kimi fəaliyyət göstərən piramidalı işçi sahələri (5.4: 5.4.1 , 5.4.2,....,5.4.l) xüsusi ayrılmış qapalı məkanlarda yaratmaq. İnşa olunmuş texnoparkın binasında havalandırma, su, qaz kommunikasiya xətlərinin açıq konstruksiya ilə quraşdırılması; modern mebellərin, rənglərin, arxitektur həllərin istifadə edilməsi və sınaq sahələrinin tətbiq edilməsi nəzərə alınmalıdır (Şəkil 4, 5).

## Ali təhsil müəssisələrində (ATM) texnoparkın yaradılması və onun davamlı inkişafla əlaqəsi məsələləri

Birləşmiş Millətlər Təşkilatının (BMT) üzvü olan 193 ölkənin 2015-ci ildə keçirilən Davamlı İnkişaf Sammitində 2015-2030-cu illəri əhatə edən Davamlı İnkişaf Məqsədlərində davamlı inkişafa belə izah verilmişdir: "Davamlı İnkişaf gələcək nəsillərə öz ehtiyaclarını ödəmək qabiliyyətinə xələl gətirmədən indiki dövrün ehtiyaclarını ödəyən inkişafdır". 17 bənddən ibarət olan davamlı inkişaf məqsədləri davamlı inkişafin üc əsas : iqtisadi, sosial və ekoloji aspektlərini əhatə etməklə, qlobal tələblərə uyğun cəmiyyətin yeni çağırışlarla inkişaf istiqamətlərini müəyyən etmişdir (Zott Amit, Massa, pp. 15-41). Davamlı İnkişafın doqquzuncu məqsədi dayanıqlı infrastrukturların yaradılması, əhatəli və davamlı sənayeləşdirmə və innovasiyalara təsirlə əlaqədardır. Müasir dövrdə sənayeləşdirmə, innovasiya və infrastrukturların inkişafı texnoparkların yaradılması ilə sıx bağlıdır. İnnovasiya və texnoloji inkişaf, texnoparkların yaradılması iqtisadi, ekoloji və sosial problemlərin həlli məqsədilə uzun müddətli qərarların axtarışı üçün böyük əhəmiyyət kəsb edərək, resurslardan istifadənin və enerjinin səmərəliliyini artırır.




**Şəkil. 4.** SDU-nun Texnoparkının səviyyəli quruluşu



**Şəkil. 5.** SDU-nun İM, startup, scaleup və şirkət sahələrinin dizaynı

Qloballaşan müasir dövrün ən vacib tələblərindən biri də güclü maddi-texniki bazaya, o cümlədən texnoparklara, elmi mərkəzlərə malik milli elmi-tədqiqat yönümlü və innovativ universitetlərin yaradılmasıdır. Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə ESG standartları və təlimatlarında (Sanz, Lion, pp. 234-245) tədrisdə innovasiyalardan və yeni texnologiyalardan istifadənin həvəsləndirilməsinə xüsusi önəm verilir.

Bu isə universitetlərdə də texnoparkların yaradılmasını zəruri edir. Belə universitetlərin və ATM-lərin yaradılmasının əsas məqsədləri kimi aşağıdakıları qeyd etmək mümkündür:

- elmi yaradıcı potensialın və imkanların inkişafı və innovasiya fəaliyyətinin təşkili;
- tələbələrin yaradıcılıq və innovasiya layihələndirilməsinin öyrədilməsi və ona cəlb edilməsi;
- elmi–tədqiqat islərinin kommersiyalaşdırılması.

Bu məqsədlər ATM-in idarəetmə və strategiyasında tədrislə yanaşı, xüsusilə yaradıcı elmi- innovativ fəaliyyəti də stimullaşdırmalıdır. Yeni nəsil universitetlərin (3.0 konsepsiyası) yaradılması strategiyasını əsas götürərərək (Moudi, Hajihosseini pp. 1168-1176), innovasiya və elmi tədqiqat işlərilə bağlı işlərə diqqət artırılmalıdır:

- ATM və məzunun elmi–innovativ fəaliyyətinə tələb;
- universitetlərdə elmi–tədqiqat və innovasiya mərkəzlərinin, texnoparkların yaradılması;
- univesitetlərdə təhsil və elmi-tədqiqat yaradıcılıq fəaliyyətində müasir dövrün tələblərinə uyğun qabaqcıl informasiya kommunikasiya texnologiyaları (İKT) və innovasiya texnologiyalarının tətbiqi;
- fərdi investor və sahibkarların, işgüzar mühitin ATM-də elmi–yaradıcılıq və innovasiya fəaliyyətinin, texnoparkların yaradılmasının stimullaşdırılmasına və maliyyələşdirilməsinə aktiv surətdə cəlb edilməsi.

Texnoparkların yaradılması və davamlı inkişaf konsepsiyasına uyğun olaraq onların fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi zəruri araşdırmalar tələb edir. Universitetlərdə texnoparkların yaradılması və onların innovativ fəaliyyəti, universitetlərin strateji inkişafının əsası olmaqla, davamlı inkişafın innovasiya strategiyasına da uyğundur. Texnoparkların yaradılması məqsədləri arasında aşağıdakıları qeyd etmək mümkündür: yüksək əlavə dəyər gətirə bilən yeni məhsul istehsallarının yaradılmasına təsir etmək və şərait yaratmaq, əhalinin məşğulluğunun artırılması, istehsal keyfiyyətinin yüksəldilməsi, iqtisadiyyatda yeni innovasiyalı istehsalın tətbiqi, yeni və yüksək texnologiyaların transferinə, kiçik və orta biznesə dəstək və s.

Texnoparklar çərçivəsində innovasiyaların tətbiqindən səmərəlilyin istiqamətləri kimi aşağıdakıları qeyd etmek mümkündür (Standards and Guidelines for Quality Assurance in the European Higher Education Area, 31 pp.; Dongan Management Issue of Government Initiated Innovation Cluster: pp. 857-877):

1) **iqtisadi** – innovasiyanın tətbiqilə şərtləndirilən və dəyər formasında ifadə oluna bilən iqtisadi göstəricilərlə müəyyən olunur;
2) **elmi–texniki** – yenilik, sadəlik, faydalılıq, innovasiyanın yığcamlığı, sadəliyi, yeniliyi və s. göstəricilərlə təyin olunur;
3) **maliyyə** - maliyyə göstəricilərinə əsaslanır;
4) **ekoloji**–resurs – innovasiyanın tətbiqinin istehsalın həcminə təsirə, bu və ya digər resursa qənaət, ekoloji təsirin yaxşılaşdırılması və s.;
5) **sosial** – texnoparkların yaradılması və onların innovasiya fəaliyyətinin sosial nəticələri, insanların həyat keyfiyyətinin yaxşılaşdırılması və s.

Qeyd edilən səmərəlilik meyarları davamlı inkişaf konsepsiyanın yuxarıda qeyd edilən üç əsas: iqtisadi (1-3-cü bəndlər), ekoloji (4-cü bənd) və sosial (5-ci bənd) istiqamətləri ilə bütövlükdə uyğunluq təşkil edir. Bu da bir daha innovasiyaların tətbiqinin, texnoparkların yaradılmasının davamlı inkişafla əlaqəsini göstərir.

## Nəticə

1. Türkiyədə fəaliyyət göstərən prototip texnoparkların təhlili aparılaraq, Azərbaycan üçün analoq texnoloji parkın modeli seçilmişdir.
2. Sumqayıt Dövlət Universitetinin timsalında texnoparkın yaradılması üçün təkliflər verilmişdir.
3. ATM-də texnoparkın yaradılması və onun davamlı inkişafla əlaqəsi məsələləri müəyyən edilmişdir.

## Açıqlama bəyanatı

Müəlliflər tərəfindən hər hansı potensial marağın toqquşması ilə bağlı məlumat verilməmişdir.

**Əlaqə**
**E-mail:** cavan62@mail.ru,
shafiga_mammadova@mail.ru,
yusif.guseynov.99@bk.ru

## Ədəbiyyat:

Dubovik, Mikle Innovative approach to planning innovative projects. Journal of Innovations. № 1, 2006, pp. 43-48.

Chandra, Amar, Chao, Celim. Growth and evolution of high-technology business incubation in China. Human Systems Management, № 4, 2021, pp. 55-69.

Mammadov, Javanshir, Huseynov, Elchan, Talibov, Natik, Akhmadova, Tarana, Ganjaliyeva, Gulnara Development of program tool for expert assessment of innovation projects in the scientific technopark. IFAC- V. 51 (30), 2019, pp. 571-574.

https://www.teknoparkistanbul.com.tr/

https://bilisimvadisi.com.tr/

https://www.ariteknokent.com.tr/tr

Mammadov, Javanshir Organization of technology park and its structure at high educational school of Azerbaijan. European researcher. №. 10 (13), 2011, pp. 1370-1375.

United Nations Transforming our World: 2030 Agenda for Sustainable Development. https://sdgs.un.org/2030agenda.

Standards and Guidelines for Quality Assurance in the European Higher Education Area, 2015, 31 pp. https://www.ehea.info/page-standards-and-guidelines-for-quality-assurance.

Yim, Dongan Management Issue of Government Initiated Innovation Cluster: Case of Gwangyo Techno-Valley, PICMET Proceedings, August 2-6, Portland, Oregon USA, 2009, pp. 857-877.

Sanz, Lion Science and technology parks: access doors to the knowledge economy for regions and cities // International Association of Science parks and Areas of Innovation, 2013, pp. 234-245.

Zott Amit, Massa The Business Model: Recent Developments and Future Research // Journal of management Innovation systems, 2018, pp. 15-41.

Moudi, Hajihosseini Science and Technology Parks, Tools for a Leap into the Future. Interdisciplinary journal of contemporary research in business, vol. 3, № 8, 2018, pp. 1168-1176.

**Məqaləyə istinad**: Məmmədov Cavanşir , Məmmədova Şəfiqə, Hüseynov Yusif . Türkiyə texnoparklarının təhlili əsasında Sumqayıt Dövlət Universitetinin nəzdində texnoparkın yaradılması və onun davamlı inkişafla əlaqəsi məsələsi. Elm və İnnovativ Texnologiyalar Jurnalı.Nömrə 27, 2023.cəh..12-25. DOI: 10.30546/2616-4418.27.2023.12

## SUMMARY

### The problem of creating a technopark in Sumgayıt State University on the basis of an analysis of technology parks in Turkey and its relationship with sustainable development

**Javanshir Mammadov**
**Sumgait State University, Sumgait, Azerbaijan**

**Shafiga Mammadova**
**Sumgait State University, Sumgait, Azerbaijan**

**Yusif Huseynov**
**Azerbaijan University of Technology, Azerbaijan**

In accordance with the goals of sustainable development and the requirements of the modern era, the development of scientific works that meet modern requirements, the commercialization of results, and the improvement of the social status of the teaching staff, the goal was to create a technology park at Sumgayit State University (SSU) in order to reconstruct higher educational institutions of the Republic of Azerbaijan. In order to create a technopark, the current state of technoparks created in the universities of the Republic of Turkey, as well as architectural projects, the principles of operation of the Technopark of the Istanbul Technical University and UluTek University in Bursa were analyzed. The technopark of the Technopark of the Istanbul Technical University was chosen as the basis, where it is proposed to attract a more creative, active academic and student contingent of engineering, physical and electrical power, chemical and biological, economic faculties to ensure the effective integrated work of the technopark being created at SSU; selection of firms, resident consulting services, specialists in economic and mentor support and programming from the profile specialists of these faculties and the creation of jobs; from applied areas, automation of technological processes, intelligent and network programming, robotics, development of unmanned devices, chemistry, biology, ecology, business organization, marketing, etc.; creation of jobs in specialized areas; organization of a flexible production site based on machine tools controlled by a digital program; the

use of 3D printers for the development of mechatronic projects; questions such as the development of the architecture of the incubation center, the working area of start-ups, and the company's activities were raised.

An architectural project of an engineering-oriented technopark created within the framework of the SSU, a structural diagram of the working bodies, and the principle of their operation are proposed.

The issue of realizing the scientific and creative potential and opportunities of SSU and organizing innovation activities through a joint study of the creation of technology parks and their connection with sustainable development was considered; educating and engaging students in creative and innovative design; commercialization of research works; directions for achieving efficiency from the application of innovations within the framework of the technopark of the university are determined.

***Keywords:*** Sustainable economic development, university, technology park, startup, innovation project, incubation center, flexible production, scientific research, business organization

## РЕЗЮМЕ

### Вопрос о создании технопарка в Сумгаитском Государственном Университете на основе анализа технопарков в Турции и его связи с устойчивым развитием

**Джаваншир Мамедов**
**Сумгаитский Государственный Университет, Сумгаит, Азербайджан**

**Шафига Мамедова**
**Сумгаитский Государственный Университет, Сумгаит, Азербайджан**

**Юсиф Гусейнов**
**Азербайджанский Технологический Университет, Азербайджан**

В соответствии с целями устойчивого развития и требованиями современной эпохи, разработка научных работ, отвечающих современным требованиям, коммерциализации результатов и улучшению социального положения профессорско-преподавательского состава, поставлена цель создания технологического парка в Сумгаитском государственном университете (СГУ) с целью реконструкции высших учебных заведений Азербайджанской Республики. С целью создания технопарка было проанализировано текущее состояние технопарков, созданных в ВУЗ-ах Турецкой Республики, а также архитектурные проекты, принципы работы Технопарка Стамбульского технического университета и Университета УлуТек в Бурсе. В качестве основы был выбран технопарк Технопарка Стамбульского технического университета, где предлагаются привлечение более творческого, активного академического и студенческого контингента инженерных, физико-электроэнергетических, химико-биологических, экономических факультетов для обеспечения эффективной комплексной работы создаваемого в СумГУ технопарка; отбор фирм, консалтинговых услуг-резидентов, специалистов по экономической и менторской поддержке и программированию из профильных специалистов этих факультетов и создание рабочих мест; из прикладных областей, автоматизация технологических процессов, интеллектуальное и сетевое программирование, робототехника,

разработка беспилотных устройств, химия, биология, экология, организация бизнеса, маркетинг и др.; создание рабочих мест по профильным направлениям; организация гибкого производственного участка на базе станков, управляемых цифровой программой; применение 3D-принтеров для разработки мехатронных проектов; поставлены такие вопросы, как разработки архитектуры инкубационного центра, рабочей зоны стартап-ов и деятельности компании. Предложен архитектурный проект инженерно-ориентированного технопарка, создаваемого в рамках СГУ, структурная схема рабочих органов и принцип их работы.

Рассмотрен вопрос реализации научно-творческого потенциала и возможностей СГУ и организации инновационной деятельности путем совместного изучения вопросов создания технопарков и их связи с устойчивым развитием; обучение и привлечение студентов к творческому и инновационному дизайну; коммерциализация научно-исследовательских работ; определены направления достижения эффективности от применения инноваций в рамках технопарка ВУЗ-а.

***Ключевые слова:*** Азербайджан, международная торговля, внешняя торговля, внешнеторговый оборот